**Sevda Həbib qızı ŞAHMAROVA**
Lənkəran Dövlət Universiteti, magistr

# AZƏRBAYCANDA ƏDƏBİ - NƏZƏRİ FİKRİN TƏŞƏKKÜLÜ, İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Xülasə**

Bu məqalədə Azərbaycan ədəbiyyatının nəzəri və fəlsəfi əsaslarının yaranması və inkişafı ilə bağlı əhəmiyyətli məqamlar araşdırılıb. Məqalədə ədəbiyyat nəzəriyyəsinin tarixən necə formalaşdığı, əsas fikir cərəyanlarının və fəlsəfi baxışların təsiri izah edilib. Ədəbi-nəzəri fikrin müxtəlif dövrlərdəki inkişaf mərhələləri və bu mərhələlərin Azərbaycan ədəbiyyatının ümumi inkişaf prosesi ilə əlaqəsi göstərilib. Məqalədə, həmçinin klassik dövrlərdən müasir dövrə qədər olan ədəbi- nəzəri baxışların müqayisəsi, Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərindəki nəzəri mülahizələrin ədəbi inkişafla necə əlaqələndirildiyi vurğulanıb. Ədəbi düşüncənin inkişafında önəmli rolu olan mütəfəkkirlər, onların nəzəriyyələri və ədəbi irsləri haqqında geniş məlumat verilib. Ümumilikdə, məqalə Azərbaycan ədəbiyyatının nəzəri-bədii inkişafına dair əhatəli bir təhlil təqdim edərək bu sahədəki mühüm mərhələləri və istiqamətləri müəyyən edir.

***Açar sözlər:*** *Azərbaycan, ədəbi düşüncə, nəzəri baxış, ədəbi irs, mütəfəkkirlər.*

**UOT:** 060301
**DOİ:** https://doi.org/ 10.54414/KMPI6074

## Giriş

Azərbaycan ədəbi-nəzəri fikrinin tarixini tipologiyasını müəyyənləşdirmək üçün o dövrdə ümumsovet ədəbiyyatında gedən prosesləri izləmək daha düzgün olardı. Stalinizmin sərt rejiminin dağıdıcı, repressiyalı xarakterini, Xruşşov rejiminin siyasi təzyiqlərini nisbətən azaldan, yumşaldan müəyyən islahatlarını, Qarbaçovun siyasi sistemin sonunu yaxınlaşdıran yenidənqurmasını təhlil etmədən, baş verən ictimai-siyasi proseslərin mahiyyətini üzə çıxarmadan ədəbi-tarixi prosesin reallıqlarını aşkara çıxarmaq çətin olar.

1953-cü ildə Stalinin vəfatı, 1956-cı ildə partiyanın XX qurultayında “şəxsiyyətə pərəstiş”in rəsmi səviyyədə pislənməsi məlum proseslərin sürətlənməsini şərtləndirdi. Həmin dövrə qədər həyat həqiqətlərini bədii həqiqətə çevirmək üçün yazıçılar mifik obrazlardan, simvollardan, rəmzlərdən, sətiraltı ifadələrdən istifadə edirdilərsə, artıq indi onlara öz fikirlərini sərbəst istifadə etmək üçün müəyyən çərçivədə də olsa şərait yaradılmışdı [3, s.38].

Şübhəsiz ki, yaranmış şəraitdən, birinci növbədə bədii söz ustadları faydalandı. A.Soljenitsının “Qırmızı təkər”, B.Pasternakın “Doktor Jivaqo” romanları, A.Platonovun, M.Bulqakovun o dövr üçün yeni olan əsərləri bu dövrdə yazılıb. Azərbaycan ədəbiyyatında İsa Hüseynovun “Yanar ürək”, “Saz”, İsmayıl Şıxlının “Dəli Kür”, Sabir Əhmədovun “Dünyanın arşını”, “Aran”, Mehdi Hüseynin “Yeraltı çaylar dənizə axır” əsərləri də yeni dövrün diqtəsi ilə meydana çıxıb. Ədəbiyyatımızda “yeni nəsil” kimi səciyyələndirilən Ananın, Elçinin, Hüseyn Arifin, Əli Kərimin, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, İsa İsmayılzadənin və başqalarının yaradıcılığı da həmin dövrə təsadüf edir.

## Əsas mətn

1960-cı illərdə meydana çıxan “Azərbaycan sovet ədəbiyyatı tarixi”nin (1967) əsas əhəmiyyəti bunda idi ki, həmin ədəbiyyat tarixində yaxın onilliklərin ədəbi prosesi əhatə olunurdu. SSRİ Elmlər Akademiyasının M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu ilə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunun birgə hazırladığı bu kitabın müəllifləri respublikamızın tanınmış alimləri M.A.Dadaşzadə, C.X.Hacıyev, M.C.Cəfərov, Ə.Sultanlı, M.C.Paşayev, Ə.Mirəhmədov, O.Həsənov, P.Xəlilov, Q.Qasımzadə, B.Vahabzadə, M.Vəliyev, K.Talıbzadə və başqaları, baş redaktoru akad. M.Arif, redaktorları isə H.Babayev, Q.Qasımzadə,

B.Nəbiyev idi. Oktyabr inqilabından kitabın yazılmasına qədər olan zaman məsafəsində ədəbiyyatımızın poeziya, nəsr və dramaturgiya yaradıcılığını əhatə edən ədəbiyyat tarixində hər bir yazıçının yaradıcılıq üslubu, ədəbi mühit və ədəbi şəxsiyyət, realizm yaradıcılıq metodunun tipologiyası öz dərin təhlilini tapmışdı [4, s.64].

XX əsr Azərbaycan ədəbiyyatını müxtəlif ədəbi mərhələlərini müqayisəli şəkildə öyrənmək, ədəbi şəxsiyyətlərin ədəbiyyat tariximizdəki mövqeyini müəyyənləşdirmək, ayrı-ayrı ədəbi şəxsiyyətlərin fərdi yaradıcılıq üslubunu, sənətkarlıq cəhətlərini müəyyənləşdirmək "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin (1967) əsas vəzifəsi kimi qarşıya qoyulmuşdu. Azərbaycan şıfahi xalq ədəbiyyatının xəlqi keyfiyyətləri, milli və ümumbəşəri mahiyyəti, klassik romantik poeziyanın yaradıcılıq üslubu, Şərq və Qərb mədəniyyəti ilə əlaqələri, müxtəlif təriqətlərın dini-fəlsəfi qaynaqları ilə birlikdə sovet dövrü ədəbiyyatının ictimai məzmunu, bədii xüsusiyyətləri, ədəbi mərhələlərin təsnifatı bu yeni ədəbiyyat tarixində ədəbi-tarixi və nəzəri aspektdə mükəmməl işlənmişdi. Hər iki ədəbiyyat tarixinin yazıldığı dövrü Cəlal Məmmədov "ədəbiyyatımızın şərəf və şöhrət illəri" kimi qiymətləndirirdi [2, s.98].

1960-80-ci illər qəribə təzadlarıyla tarixin yaddaşına yazıldığı zamanlarda Heydər Əliyev sovetlər birliyinin od püskürən maşınından çəkinməyərək, Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı üçün əlindən gələni əsirgəməmişdi. Hər şeyin Moskva tərəfindən tənzimlənməsinə baxmayaraq, Heydər Əliyevin şəxsi təşəbbüsü və geniş əlaqələri sayəsində Azərbaycanda yeni mətbuat orqanları və nəşriyyatlar yaradılır, kitab çapına diqqət artırılır, Azərbaycan ədəbiyyatının təbliği diqqət mərkəzinə çəkilirdi. Təkcə elə bir faktı xatırlamaq lazımdır ki, Heydər Əliyevin böyük nüfuzu və qətiyyəti sayəsində *"Azərbaycan ədəbiyyatı və incəsənətinin yeddi nümayəndəsinə bir neçə il ərzində SSRİ-nin ali təltifi sayılan Sosialist Əməyi Qəhrəmanı adı verildi"* [5, s. 6].

Qeyd edək ki, bu imperiyanın yerli xalqların ədəbiyyat və incəsənət nümayəndələrinə münasibətdə yol verdiyi yeganə istisna hal idi. Bu da əslində Ulu Öndərin sayəsində mümkün olmuşdu. O, Azərbaycanda hakimiyyətdə olduğu bütün dövrlərdə, xüsusilə də ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə dərindən maraqlanmış, ədəbi-tarixi proses və onun nümayəndələrinin yaradıcılığını diqqətlə izləmişdir. Məhz bu baxımdan da o, tənqid və ədəbiyyatşünaslığın ədəbi prosesdə roluna xüsusi əhəmiyyət vermişdir.

Bu gün bir çox tənqidçilər və sadə oxucular düşünəndə ki, o illərdə bizim bütün şair və yazıçılarımız kor-koranə bir şəkildə hakimiyyətin tələblərinə tabe olmuş, axına qarşı üzməmişdilər, bu ən azından yuxarıda adını qeyd etdiyim ədiblərə qarşı böyük haqsızlıqdır. O dövrdə bu sənətkarları hakimiyyətin "iti nəzər"indən yayındıran, onlara hamilik edən bir şəxiyyət var idi. Ona görə də müstəqillik illərində çox sənətkar özü etiraf edirdi ki, əslində o dövrdə ən böyük dissident Heydər Əliyev özü idi. O, sovet məkanında "dissident ovu" aparılanda məsuliyyəti öz üzərinə götürərək, sinəsini qabağa verərək mədəniyyətimizin incilərindən bu ittihamları sovuşdurmağı bacarmışdır.

Ədəbi prosesdə 1960-cı illər ədəbiyyatının – demokratikləşdirməyə doğru gedən ədəbiyyatın əsası 1950-ci illərin sonundan başlandığı kimi, ədəbi tənqid və ədəbiyyatşünaslıqda da yeniləşməyə bir qədər əvvəl təsadüf olunurdu.

Hətta belə demək mümkündür ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımızda yeni dövrün nəfəsi M.C.Cəfərovun "Ədəbi düşüncələr" (1958), "Füzuli düşünür" (1959), "Hüseyn Cavid" (1960) ədəbi toplu və monoqrafiyaları ilə hiss olunmağa başladı. "Azərbaycan ədəbiyyatında romantizm" (1963), "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən"(1964), "Mütəfəkkirin şəxsiyyəti" (1966), ikicildlik "Seçilmiş əsərləri" (1973-74), üçcildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970-75) əsərləri isə həmin dövr tənqid və ədəbiyyatşünaslığının elmi-nəzəri səviyyəsinin göstəricisi olmaq baxımından əhəmiyyətlidir. Bu əsərlərin hər biri ədəbi fikrimizdə hadisə kimi qiymətləndirilirdi. Totalitar təfəkkürün güclü olduğu, milli ideyaların, azadfikirliliyin hələ də ciddi şəkildə izlənildiyi, repressiyalarla üzləşdiyi 1940-50-ci illər dövrünün qürub çağında da Füzuli sənətinin estetik mahiyyətindən, H.Cavid əsərlərinin sosialist realizm yaradıcılıq metodunun ideoloji çərçivələrinə sığışmayan romantikliyindən və hüriyyətə, humanizmə zidd olan, siyasi yasaqlara zidd gedən bədii-fəlsəfi dünyagörüşündən söhbət açmaq o qədər də asan

deyildi. Fikir versək görərik ki, həmin dövrdə M.C.Cəfərovun bədii yaradıcılığına müraciət etdiyi sənətkarlar M.Füzuli, H.Cavid, M.F.Axundzadə ədəbiyyatımızda yeni cığır açan, bədii yaradıcılığı və şəxsiyyəti örnək olan sənətkarlardır.

Ədəbiyyatşünas-yazıçı Mir Cəlal Paşayevin də yaradıcılığının "qızıl dövrü" 1960-80-ci illərə düşür. 1930-cu illərdən başlayaraq o, paralel şəkildə həm bədii yaradıcılıqla, həm də ədəbiyyatşünaslıqla sistemli məşğul olub. "Cəlil Məmmədquluzadə realizmi haqqında" (1966) monoqrafiyası, "XX əsr Azərbaycan ədəbiyyatı" (prof. F.Hüseynovla birlikdə) (1982) "Ədəbiyyatşünaslığın əsasları" (prof. P.Xəlilovla birlikdə) (1988) dərslikləri, ədəbiyyat tarixlərindəki fəaliyyəti ilə o, ictimai-ədəbi fikrimizə yenilik gətirmişdir. Bundan əlavə çoxsaylı məqalələri, portret-oçerkləri ilə professionallığını sübuta yetirmiş, ədəbiyyat tariximizdə öz mövqeyini möhkəmləndirmişdir. Bu əsərlərin bir qismi "Klassiklər və müasirlər" (1973) kitabında toplanmışdır. Əsərdə ədəbiyyatşünasın Nizamidən başlayaraq müasir 1960-70-ci illərə qədər olan ədəbiyyatımızın müxtəlif məsələlərinə işıq tutulur, sənətkarlarımızın yaradıcılığı ənənə və varislik prinsiplərindən təhlilə cəlb olunur [1, s.229].

**Nəticə**

1970-ci illərdən başlayaraq nəzəri-estetik fikrimizdə bədii metod problemi yenidən gündəmə gəldi. Realizm və romantizmin yaranması, təşəkkülü və inkişaf mərhələləri ətrafında qızğın elmi polemikalar aparıldı. Marksist estetikanı daha çox realizm yaradıcılıq metodu maraqlandırdığı üçün bu sahədəki diskussiyalar daha qızğın keçirdi. Şübhəsiz ki, realizmin nəzəri və tarixi problemlərinin müəyyənləşməsində Arif Hacıyevin "Sovet Şərqi ədəbiyyatlarının realizmi" (1978) monoqrafiyası da mühüm rol oynadı. Onun sovet şərqi xalqlarının ədəbiyyatında realizmin tipologiyası haqqındakı konseptual fikirləri bu gün də öz əhəmiyyətini saxlayır. Realizm haqqında olan bu konsepsiyada müəllifin əsas götürdüyü metodoloji prinsip regionda realizmin yaranması və təşəkkülünə aydınlıq gətirirdi. Diqqətəlayiq idi ki, bu əsərdə sovet şərqi xalqlarının ədəbiyyatı bütöv bir ədəbi sistem daxilində təhlil olunur, realizmin region xüsusiyyətləri diqqətlə izlənilirdi.

XX əsrin 60-80-ci illərini milli ədəbi-nəzəri fikrin yüksəliş dövrü kimi xarakterizə edə bilərik. Çünki bu mərhələdə estetik fikrimiz get-gedə profesionallığı artırıb, yeni ideya-estetik keyfiyyətlər qazanıb. Ədəbi tənqiddə şəxsiyyət amili önə keçib, ədəbi-tarixi fakt axtarışı ilə yanaşı, yazılan məqalə, resenziya və monoqrafiyaların nəzəri səviyyəsi xeyli dərəcədə yüksəlib.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Elm, 2011, 373 s
2. Babayev N. Ədəbi mübahisələr. Bakı: Yazıçı, 1986, 180 s.
3. Cəfər X. Ədəbiyyatımızın dünəni və bu günü. Bakı: Yazıçı, 1980, 248 s.
4. Cəfər M. Mütəfəkkirin şəxsiyyəti. Bakı: Azərnəşr, 1966, 216 s.
5. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999, 496 s.

**Севда Габиб гызы ШАХМАРОВА**
Ленкоранский государственный университет, магистрантка

**ЭТАПЫ ОРГАНИЗАЦИИ И РАЗВИТИЯ ЛИТЕРАТУРНО-ТЕОРЕТИЧЕСКОЙ МЫСЛИ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В данной статье рассматриваются важные моменты, связанные с возникновением и развитием теоретических и философских основ азербайджанской литературы. В статье объясняется, как исторически формировалась теория литературы, влияние основных течений мысли и философских взглядов. Показаны этапы развития литературно-теоретической мысли в разные периоды и то, как эти этапы связаны с общим развитием азербайджанской литературы. В статье также подчеркивается сравнение литературно-теоретических взглядов классического периода с современным периодом, то, как теоретические соображения в разные периоды азербайджанской литературы связаны с литературным развитием. Мыслителям, сыгравшим важную роль в развитии литературной мысли, их теориям и литературному наследию, была предоставлена обширная информация. В целом в статье дается всесторонний анализ теоретико-художественного развития азербайджанской литературы и определяются важные этапы и направления в этой области.

***Ключевые слова:*** *Азербайджан, литературная мысль, теоретический взгляд, литературное наследие, мыслители.*

**Sevda Habib SHAHMAROVA**
Lankaran State University, Master's student

## THE ORGANIZATION AND DEVELOPMENT STAGES OF LITERARY AND THEORETICAL THOUGHT IN AZERBAIJAN

### Summary

In this article, important points related to the emergence and development of the theoretical and philosophical foundations of Azerbaijani literature are examined. The article explains how the theory of literature was formed historically, the influence of the main currents of thought and philosophical views. The development stages of literary-theoretical thought in different periods and how these stages are connected with the general development of Azerbaijani literature are shown. The article also emphasizes the comparison of literary-theoretical views from the classical period to the modern period, how the theoretical considerations in different periods of Azerbaijani literature are connected with literary development. The thinkers who played an important role in the development of literary thought, their theories and literary heritage were given extensive information. In general, the article provides a comprehensive analysis of the theoretical-artistic development of Azerbaijani literature and identifies important stages and directions in this field.

***Keywords:*** *Azerbaijan, literary thought, theoretical view, literary heritage, thinkers.*